# Bir kişi Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdu: "İslamın hansı əməli daha xeyirlidir?". O, dedi: “Yemək yedirtməyin, tanıdığın və tanımadığın hərkəsə salam verməyin”

Abdullah bin Amrdan (Allah onların hər ikisindən razı olsun) rəvayət edilir: Bir kişi Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdu: "İslamın hansı əməli daha xeyirlidir?". O, dedi: “Yemək yedirtməyin, tanıdığın və tanımadığın hərkəsə salam verməyin”.
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşuldu: İslamın hansı xüsusiyyəti daha üstündür? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) iki xüsusiyyəti qeyd etdi: Birincisi: Sədəqə vermək, hədiyyə etmək, qonaqpərvərlik və ziyafət vermək kimi əməlləri əhatə edən kasıbları yedizdirməyi çoxaltmaq. Aclıq və bahalıq dövründə kasıbları yedizdirməyin fəziləti daha da artır. İkincisi: Tanıdığın və tanımadığın hər bir müsəlmana salam vermək.

https://www.sunnah.global/hadeeth/az/show/5808